# Vətən səmasından enməyən qəhrəman



**"Xalidi son dəfə müharibənin başlamasından üç gün əvvəl görmüşdüm. Çox yorğun və fikirli idi. Mənim arxa tərəfimdə oturmuşdu. Qəfildən dönüb üzünə baxanda anlaya bilmədiyim bir kədər gördüm. Baxışları qara buludlar kimi tutqun idi. Sanki nəsə olacaqdı. İçimə şübhə düşdü, hər hansı çətinliyinin olub-olmadığı ilə maraqlandım, heç nə demədi. Sonra öz otağına keçib telefonla danışmağa başladı. Düşündüm ki, yəqin istəklisidir. Bir ata kimi o xoşbəxt günün xəyalını da qurdum. Məni o gözəl günlərin düşüncələrindən bir neçə gün sonra gələn qara xəbər ayırdı..."**

Bunu AZƏRTAC-a müsahibəsində Vətən müharibəsi şəhidi, Dövlət Sərhəd Xidmətinin pilotu, baş leytenant Xalid Gözəlovun atası Həsən Gözəlov söyləyib.

O, fikirlərinə belə davam edib: "Üç qardaşın ortancılı olan Xalid çox mehriban, dözümlü, səbirli, təmkinli, vətənpərvər insan idi. Orta məktəbi bitirdikdən sonra ali məktəbə imtahan verərək, ödənişsiz əsaslarla Azərbaycan Texniki Universitetinə qəbul oldu. Lakin orada oxumadı, çünki hərbi sahəyə meyli var idi. Daha sonra sənədlərini Dövlət Sərhəd Xidməti Akademiyasına verərək istəyinə nail oldu. Aviasiya mühəndisi fakültəsində təhsil aldı. 2017-ci ildə akademiyanı bitirən kimi Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində xüsusi bacarığına görə leytenant rütbəsində pilot vəzifəsinə təyin olundu. 2019-cu ildə isə ona baş leytenant rütbəsi verildi.

Xalid uşaqlıqdan fəal və sağlam düşüncəli biri idi. O, asudə vaxtlarını fiziki və mənəvi cəhətdən güclənməyə sövq edən faydalı işlərə sərf edirdi. İdmanın güləş növü ilə məşğul olurdu. Saysız-hesabsız mükafatlar, medallar qazanmışdı. Hətta çempion da olmuşdu.

Son dəfə kiçik qardaşı ilə danışıb. Bizi ona əmanət edib, lakin bu barədə heç nə deməməyi bildirib. Ona zəng çatmasa narahat olmamağı tapşırıb. Telefonun enerjisinin tükəndiyini, adapterin Bakıda qaldığını, özünün isə Yevlaxda olduğunu deyib.

Biz Xalidin şəhid olması xəbərini qəfil aldıq. Xəbərə inanmadıq, bir yandan çaşbaşlıq, bir yandan puç olan arzular. Hər şey bir-birinə qarışmışdı, çünki onun müharibədə olduğundan xəbərsiz idik.

Sən demə, Xalid müharibənin ilk günündə Füzuli istiqamətində döyüşlərə qoşulub, elə orada da şəhadətə yüksəlib. Aldığımız xəbərin təsiri o qədər dağıdıcı oldu ki, hələ də özümüzə gələ bilmirik. Biz onun 24 yaşını noyabrın 4-də məzarı başında qeyd etdik. Xalid bir evdən yox, bir eldən gedən oğullardan idi..."

Qeyd edək ki, baş leytenant Xalid Gözəlov Hərbi Memorial Məzarlıqda dəfn olunub. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

Azərbaycan. - 2025.- 2 dekabr (№254) - S.8.